

■ Firuzə Məmmədli

## OLMUR

Ürəyimin əlindən
Başım salamat olmur.
Məni məndə əridən
Yaşım salamat olmur.

Yıxılıram, qalxıram,
Sağa-sola darıxıram.
Hər nəsnədən karıxıram,
İşim salamat olmur.

Ötüb keçib yay üzüm,
Şırımlanıb Ay üzüm.
Uralanıb payızım,
Qışım salamat olmur.

## GEDİM

İlahi, İlahi mən bu günlərin
Hansı sifətini ötürüm gedim?!
Ömürlə açdığım bu yoldan bəlkə,
İzimi, sözümü itirim gedim.

Ta qanım qaynamır bu gündüzlərə,
Bozaran üzlərə, dönük üzlərə.
Ayətəl-kürsümü bəlkə yüz kərə
Oxuyub, bəşərə üfürüm gedim.

Daha yorulmuşam, daha bezmişəm,
Bu yolda kölədən-şaha bezmişəm.
Dünyaca naləyə, aha bezmişəm,
Qaçım dərə, təpə, uçurum gedim.

Səbrim əliboşdur baxt itkisində
Gəlişi olmayan vaxt itkisində.
Bəlkə bu zamansız haqq itkisində
Vaxtımı bir təhər keçirim gedim.

Bəs necə sevmişəm bu dar dünyanı?
İtinə, qurduna bazar dünyanı.
Allah, özün yol tap, qurtar dünyanı, –
Sevgisin qəlbimə köçürüm gedim.

## ÜMİDLƏRİM

Səbrin çiyni yağır oldu,
Daşıdıqca ağır oldu,
Bir tilsimli nağıl oldu
Doğrulmayan ümidlərim.

Ardınca daş da atmadım,
Yuxuydusa, oyatmadım.
Əli əlimə çatmadı
Doğrulmayan ümidlərin.

Aldanışdı, həqiqətdi,
Ümid, inam, təriqətdi.
Hansı adda mərifətdi
Doğrulmayan ümidlərim?!

## BACIM HƏZİRANIN ƏZİZ XATİRƏSİNƏ

Ağrıdandı tiyəsi
O sənli dərdin elə,
Dərdin sovqat idimi?, -
Mənə göndərdin elə?

Sıxıldım dərd gözündən,
Damla-damla dözümdən.
Qorxdum,
özüm-özümdən,
Özümü dərdim elə.

Bu ölüm – su yaxası,
Məni yuyub sıxası.
Qurutmağa bu yası
Dərdimə sərdim elə.

## ŞÜKÜR

Bəlkə o yolları bir də qayıdım,
Yatmış xatirəmi öpüb ayıldım.
“Qalx!” deyim, əsnəyib boylansın mənə,
“Nə istəyirsən e...?” söylənsin mənə.
Görsün kövrəlmişəm, yumlaşsın bir az,
Duruxsun, durulsun, korşalsın bir az.
Coşub-daşdığına peşiman olsun,
Gözlərimdən daşan çeşməm olsun...
...Ay Allah, nə qədər xatirəm varmış!
Yanında nə uca xətrim varmış!
Yaxşıya da şükür, pisə də şükür,
Mənə bəxş etdiyin sözə də şükür!
Əyriyə də şükür, düzə də şükür!..
Bir qismət uğurum olubsa əgər,
Ona da tuşlanan həsədə şükür!
Sevgidən-nifrətə, sevincdən-dərdə
Yeridiyim yerdə, durduğum yerdə
Dərəyə-təpəyə: təzada şükür!..
...O bahar idi e... O yaz idi e...
Mənə də vermişdin, yadındadırmı? –
Allah, o bahara, yaza da şükür!
Qolundan tutduğum bir qocaya da,
Qolumdan yapışan cavana şükür!
Allah, torpağına, Allah oduna,
Yerinə, göyünə, havana şükür!
İnsanı, heyvanı, balığı, quşu,
Kələzi, ilanı o dünyanındı,
Allah, bu dünyaya qalana şükür!..
Mən şükür deyirəm bu son günlərin,
Məni qulağından asan günlərin
Xəbis qeybətinə, xoş söhbətinə,
Dolu söhbətinə, boş söhbətinə.
O dadlı, məzəli, o sazlı-sözlü,
İşıqlı günlərin gözünə şükür.
Sənin qələminlə, sənin yazınla
Gələnin, gedənin izinə şükür.
Ay Allah, hər şeydən,
hər kəsdən əvvəl
Özünə, Özünə, Özünə şükür!..